**Zahid Savalanoğlu**

# BAHAR TƏBƏSSÜMÜ

*Şeirlər*

QANUN NƏŞRİYYATI

*70 yaşına az qalmış Zahid Sarvanoğlunun bu kitabı əsasən Qarabağ ağrıları ilə yoğurulub. Qaçqınlıq, məcburi köçkünlük, ağır həyat, ədalət axtarışı kitabın başlıca mövzusudur. Lakin sizə təqdim olunan topluda bütün mövzularda şeirlər vardır. Müəllif həyat, sevgi və ölüm mövzularına da biganə qalmamış, eyni zamanda sosial-siyasi motivli nümunələr də qələmə almışdır. Kitabın maraqla qarşılanacağını düşünürük.*

# MÜXTƏLİF MÖVZULU ŞEİRLƏR

# Müəllifdən

12 iyun 1957-ci ildə Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olmuşam. Orta təhsilimi kəndimizdəki məktəbdə almışam. Məndə şeirə, sözə böyük marağı hələ uşaqkən atam yaratmışdı. Atam fəhlə olsa da, sevə-sevə oxuduğu Aşıq Ələsgərin şeirləri, "Koroğlu", "Tahir və Zöhrə", "Əsli və Kərəm", "Abbas və Gülgəz" dastanları o vaxtlar məni uşaq dünyamdan ayırıb başqa dünyaya aparardı.

Sən demə, həmin əsərlərin təsiri saf, kövrək uşaq qəlbimə necə sirayət edibsə, xəbərim olmadan məni də şeir dünyasına aparıb çıxarıb. İlk şeirlərimin, daha doğrusu, cızma-qaralarımın tarixi – yada sala bilmədiyim uşaqlıq illərimə təsadüf edir. O vaxtlar bir şeirimdə belə bir misra vardı:

*Hələ taleyimə toxunmayıb daş.*

Atam dinləyib dedi:

– Bala, daş toxunmur, dəyir. Olarmı "hələ taleyimə dəyməyibdi daş" yazasan.

Gördüm burada həm məna var, həm də hecalar düz gəlir.

Hələ gənc vaxtlarımdan məqalələrim rayon mətbuatında müntəzəm çıxardı. Mətbuat üzü görən ilk şeirim "Sözüm var mənim" 1980-ci ildə (1979-cu ildə yazmışam) yerli rayon qəzetində dərc olunmuşdu.

*Könül, ruhdan düşmə, qəmlənsən də sən,*
*Tənqidlərə dözən üzüm qalıbdı.*
*Asılıbdı bir od kəlmələrimdən,*
*Hələ üfrülməmiş közüm qalıbdı.*

*Demirəm dəniz ol, demirəm çay ol,*
*Demirəm günəş ol, demirəm ay ol.*
*Birinə ümid ol, sevincdən pay ol,*
*Bilim ki, dəyərli sözüm qalıbdı.*

Təəssüf, bir bəndini unutmuşam.

Ağdamda fəaliyyət göstərən "Gəncliyin səsi", "Qarabağın səsi" ədəbi birliklərin üzvü olmuşam. Orada güzəşt yoxuydu. Zəif şeirlər tənqid olunurdu. Yeri gəlmişkən, bu ədəbi birliklərin mənim yaradıcılığımda çox müsbət təsiri olub. O illərdə şeirlərim bəzi jurnal və qəzetlərdə dərc edilib. Mətbuatda Musa Yaqub, Hüseyn Arif, Maarif Soltan və başqaları müsbət rəy yazıblar.

4 iyul 1993-cü ildə Ağdamın Mərzili, İsmayılbəyli, Pirzadlı, Saybalı və digər kəndləri azğın ermənilər tərəfindən işğal edildi.

Bizim ailəmiz və bir neçə ailə Ağdamın Alıbəyli kəndində bir müddət qaldıqdan sonra İsmayıllıya getməli olduq. Oradan maşınlar gəlmişdi. İlk dəfəydi tanımadığımız bir bölgəyə gedirdik. Yük maşınlarının kuzası və ya bortu (Azərbaycan dilinə tərcüməsini bilmirəm) çox hündür idi.

Ayağa durub baxsaq da, heç yer görünmürdü. Ancaq göy görünürdü.

Dəniz rəngli göy...

Mən “Tahir və Zöhrə” dastanından oxumuşdum ki, Tahiri sandığa qoyub dənizə atırlar. Birdən düşündüm: maşının kuzası və ya bortu çox hündürdür, dənizə oxşayan səmadan, göydən başqa heç nə görünmür. Getdiyimiz maşın da sandıq kimi bağlıdır. Yəqin taleyimiz, alın yazımız bizi ucu-bucağı görünməyən qasırğalı, fırtınalı dənizə atıb.

Doğma Qarabağı, gözəl Ağdamı, doğma kəndim İsmayılbəylini itirəndən sonra şeirlərimin nikbinliyini də itirdim. İtirdiklərimin içərisində mənə ən çox əzab verən əzizlərimin, doğmalarımın qəbirləri və əsir qalan şeirlərimdir.

Ulu yaradana çox şükürlər olsun.

Onun qüdrəti, şəhidlərimizin rəşadəti, şücaəti, qazilərimizin Vətən eşqi sayəsində, doğma Qarabağımız mənfur, qudurğan düşmənlərdən azad edildi.

*İllərlə qalsan da qan dənizində,*
*Ümid işartısı vardı gözündə.*
*Atların kişnəyir “Cıdır düzü”ndə,*
*Bayrağın Şuşadan asılıb, Vətən!*

*İsa bulağında Ceyran balası,*
*Ana məkanında o yurd salası...*
*Qeyrətə layiqdir qeyrət qalası,*
*Bayrağın Şuşadan asılıb, Vətən!*

# Halallıq

Əgər bir fağıra oldumsa gərək,
Əməlimdən gülüb sevinər ürək.
Halal qazanılıb yediyim çörək,
Haramı halala qatmaram, qardaş.

Kimə fayda verdi ömrümün şumu,
Cücərdə bildimmi əkdiyim tumu?
Namərdin əlindən qaçan məzlumu,
Tutub o günaha batmaram, qardaş.

Qorudum qəlbimdə müqəddəs közü,
Hər an açıq oldu vicdanın gözü.
Haqqı tutub, haqq bildiyim hər sözü,
Deyərəm, boğazda udmaram, qardaş.

Mənimçün imarət – daxma, dam belə,
Mərdlik sönməz məşəl, nədir şam belə.
Əgər dar ağacdan asılsam belə,
Yaxşını yamana satmaram, qardaş.

Xoş niyyətlər edib hey əsir məni,
Sanki səslər ocaq məni, pir məni.
Düşündüm, yesə də aslan, şir məni,
Tülkü kölgəsində yatmaram, qardaş.